BRITISH COUNCIL

*Pres Reliz*

# British Council Azərbaycanda reallaşdırılacaq *Gələcəkdə İngilis dili* layihəsini təqdim edir

10 dekabr 2020

*Gələcəkdə İngilis Dili* layihəmizin əsas hədəfi İngilis dilinin tədqiqatı və mahiyyəti haqqında ətraflı məlumat vermək, təhsil sistemlərində innovasiyanın təşviqi və regionlarda İngilis dilini tədris edən müəllimlərin professional səviyyədə davamlı inkişafını dəstəkləməkdən ibarətdir.

Azərbaycanda, *Gələcəkdə İngilis Dili* layihəsi **Azərbaycan Respublikası Təhsil Nazirliyilə** sıx əməkdaşlıq şəraitində həyata keçiriləcəkdir.

*Gələcəkdə İngilis Dili* layihəsi üç illik layihədir və diqqət mərkəzləri aşağıdakılardan ibarətdir:

- **Tədqiqat: Australian Council for Education Research (ACER)** dəstəyilə, məzun olan şəxslərin İngilis dili biliklərini mükəmməlləşdirmək üçün həyata keçiriləcək uyğun müdaxilələrin sxemi haqqında müqayisəli, etibarlı və keçərli verilənlər toplusu təqdim edərək, 16 yaşlı yeniyetmələrin dil bacarıqlarının (onların motivasiyalarının, səylərinin və üstünlük verdikləri öyrənmə üsullarının) qiymətləndirilməsi barədə İngilis dilinin təsir dairəsi adı altında tədqiqat həyata keçirəcəyik.

- **Vahid Dil Siyasəti:** Tədqiqatlardan əldə etdiyimiz məlumatları paylaşacaq və diqqət mərkəzində İngilis dili siyasəti və müəllimlərin davamlı professional inkişafı olmaqla, mümkün həll yollarını araşdıracağıq.

- **Müəllimlərin Mütəxəssisləşdirilməsi:** Daim müəllimlərlə çalışdığımız üçün bu sahədə və onların professional səviyyədə inkişafını dəstəkləmək üçün rəqəmsal innovasiya vasitələrinin tərtibatında böyük təcrübəyə sahibik. Məhz elə bu səbəbdən virtual tədris təşkilatının yaradılmasına öncüllük edirik. Bu platformada müəllimlər onlarla həmfikir mütəxəssislərlə ünsiyyət yarada, vəsaitlər əldə edə və onlayn tədris üzrə fərdi təcrübəyə sahib ola bilərlər.

Virtual tədbirdə Azərbaycan Respublikasının Təhsil Naziri **cənab Emin Əmrullayev,** British Council-ın gələcək Baş İcraçı Direktoru xanım **Keyt Yuvart-Biqs**, Böyük Britaniyanın Azərbaycandakı Səfiri **cənab Ceyms Şarp** və British Council-ın ölkə üzrə direktoru **cənab Samr Şah** iştirak edəcəklər.

Daha ətraflı: **https://www.britishcouncil.az/programmes/education-society/future-english**

British Council-ın gələcək Baş İcraçı Direktoru xanım Keyt Yuvart-Biqs şərh edir:

> *"British Council, Azərbaycan Respublikası Təhsil Nazirliyilə birgə* Gələcəkdə İngilis Dili *layihəsinin Azərbaycanda həyata keçirilməsindən çox məmnundur. Layihə CPD (Continuous Professional Development) sisteminin bütövlükdə inkişafı və məktəblərdə İngilis dili müəllimlərinin professional inkişafının təminatı məqsədilə onların ehtiyaclarının qarşılanmasında strateji öncəliklərin müəyyənləşdirilməsinə yönləndirilmişdir. Əməkdaşlarımız ACER və Lester Universiteti ilə birlikdə reallaşdıracağımız ətraflı tədqiqat və sempling üsulundan yararlanaraq, ölkə miqyasında bütün məktəblərdə İngilis dilinin tədrisi keyfiyyətini təkmilləşdirmək məqsədilə Nazirliyə olduqca əhəmiyyətli məlumatlar ötürəcəyik."*

The British Council is the United Kingdom's international organisation for cultural relations and educational opportunities. A registered charity: 209131 (England and Wales) SC037733 (Scotland).

British Council-ın ölkə üzrə direktoru cənab Samr Şah:

*“Həmkarım Keyt Yuvart-Biqsi Azərbaycanda qarşılayacağım üçün çox xoşbəxtəm. Azərbaycan British Council qlobal şəbəkəsində seçilən ölkələr sırasındadır və təşkilatımızın gələcək Baş İcraçı Direktoru kimi Keytin bizimlə şəxsən görüşmək istəməsi qürurvericidir. Dostumuz, Azərbaycan Respublikası Təshil Naziri Emin Əmrullayevlə birlikdə nümunəvi Gələcəkdə İngilis dili layihəmizin Azərbaycanda keçirilməsindən çox məmnunuq. Ümid edirik, bu layihə vasitəsilə yüzlərlə azərbaycanlıya ingilis dili biliklərini təkmilləşdirmələri üçün imkanlar yaradacağıq. Beləliklə onlar rahatlıqla iş bazarında özlərinə yer tapacaq, təhsillərini davam etdirəcək və gələcəkdə böyük uğurlara imza atacaqlar”*

**Ətraflı məlumat əldə etmək üçün əlaqə saxlayın:**

Nərgiz Hüseynova|İngilis Dili və Təhsil üzrə Menecer | British Council-ın Azərbaycandakı ofisi

nargiz.huseynova@britishcouncil.az | T +994 (0) 12 497 1593

## British Council haqqında

British Council Birləşmiş Krallığın mədəniyyət üzrə əlaqələr və təhsil imkanları sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatıdır. Biz Birləşmiş Krallıq və digər ölkələrin xalqları arasında dostluq və qarşılıqlı anlaşma münasibətləri yaradırıq. Biz bunu Birləşmiş Krallığa və birgə çalışdığımız ölkələrə müsbət töhfələr verərək - imkanlar yaratmaqla insanların həyatını dəyişərək, əlaqələr quraraq və inam yaradaraq edirik. Biz dünyanın 100-dən çox ölkəsində mədəniyyət və incəsənət, ingilis dili, təhsil və vətəndaş cəmiyyəti sahələrində fəaliyyət göstəririk. Keçən il 80 milyondan çox insana üz-üzə və ümumilikdə 791 milyon insana onlayn, yayımlar və nəşrlər vasitəsilə səsimizi çatdırmışıq. Təşkilatımız 1934-cü ildə təsis edilmişdir. Birləşmiş Krallığın Kral Xartiyası tərəfindən idarə edilən xeyriyyə təşkilatı və Birləşmiş Krallığın dövlət qurumuyuq.

www.britishcouncil.az